# Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# Allah Kölə Yusifi İzzətləndirir



Müəllif: Edward Hughes
İllüstrasiya edən: M. Maillot; Lazarus
Uyğunlaşdıran: M. Maillot; Sarah S; Alastair P.
Tərcümə edən: Günay Əsədova
Təqdim edən: Bible for Children
www.M1914.org

BFC
PO Box 3
Winnipeg, MB R3C 2G1
Canada

©2021 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.



Yusif öz keçmiş ağası Potifar tərəfindən yanlış olaraq zindana atılmışdı. Yusif zindanda itaətli və faydalı idi. Baş nəzarətçi zindandakı bütün işləri Yusifə həvalə etmişdi. Allah Yusiflə idi, buna görə də, zindan hər bir kəs üçün daha yaxşı yer oldu.




Padşahın çörəkçisi və saqisi zindanda idilər. Bir gün Yusif onlardan soruşdu: "Siz nə üçün kədərlisiniz?"
3
Həyəcan içində olan adamlar cavab verdilər: "Heç kim yuxumuzun mənasını bizə yoza bilmir". Yusif cavab verdi: "Allah bilər! Yuxunu mənə danışın".
4
Yusif saqiyə dedi: "Yuxunun yozması o deməkdir ki, üç gündən sonra padşah Firon səni yüksəldəcək. Məni xatırla və Firondan məni azad etməsini xahiş et". Çörəkçinin yuxusu pis idi. Yusif dedi: "Üç gündən sonra sən öləcəksən". Yuxuların hər ikisi həyata keçdi.
5
Lakin saqi bir gün Fironun yuxudan təlaş içində oyanan vaxta qədər Yusifi unutdu. Firon ucadan dedi: "Mən yuxu görmüşəm".
Onun müdrik adamlarının heç biru yuxunu yoza bilmədi. Sonra saqi zindandakı Yusifi xatırladı. Firona onun haqqında danışdı.
6
Firon dərhal Yusif üçün adam göndərdi. Yusif padşaha dedi: "Sənin yuxun Allahdan bir xəbərdir. Misirdə yeddi il bolluq olacaq, sonra yeddi il dəhşətli aclıq olacaq".
7
Yusif Firona məsləhət gördü: "İndi yeddi bolluq ilində anbarları doldurmağı planlaşdırın, yoxsa aclıq ilində insanlar acından öləcək". Firon elan etdi: "Allah səninlədir. Sən Misirin başçısı olacaqsan, ancaq məndən sonra ikinci olaraq".
8


Yeddi illik bolluq gəldi. Sonra yeddi illik aclıq gəldi. Müdrikliklə nəhəng anbarlarda saxlanan ərzaq Misirdən başqa hər yerdə az idi. Yusifin də uzaq vətəni, Yaqubun ailəsi aclıq içində idi.
9


Dünyanın hər yerindən insanlar taxıl almaq üçün Misirə gedirdilər. Yaqub oğullarına əmr etdi: “Siz də getməlisiniz, yoxsa biz aclıqdan öləcəyik”. Misirə çatanda oğulları ərzaq almağa hazırlaşdılar.
10


Yaqubun oğulları Misirin başçısı olan, alicənab bir adamın önündə baş əydilər. Onlar qardaşları Yusifi tanımadılar. Amma Yusif onları tanıdı. Yusif öz yeniyetməlik yuxularını xatırladı. Allah onu qardaşları üzərində yüksəltmişdi.
11


Yusif çox müdrik adam idi. O sərt danışdı və öz qardaşı Şimeonu girov saxladı. O əmr etdi: “Yemək götürün, evə gedin və balaca qardaşınızla qayıdın. Onda mən sizin casus olmadığınızı biləcəyəm”.
12


Qardaşlar fikirləşdilər ki, yəqin Allah onları uzun illər əvvəl Yusifi kölə kimi satdıqlarına görə cəzalandırır.
13


Yaqub və onun qardaşları çaşqınlıq içində idilər. “Bizim pullarımız taxılın içində geri qaytarılıb. Başçı da dedi ki, biz Binyamini gətirməliyik”. Yaqub Binyaminin getməsinə izin vermədi. Lakin tezliklə ərzaq tükəndi. Qardaşlar yenidən Misirə getməli idilər. Binyamin də onlarla getdi.
14

Yusif Binyamini görəndə qulluqçularına böyük bir ziyafət hazırlamalarını əmr etdi. Qardaşlar da dəvət olundular. Yusif soruşdu: “Atanız hələ sağ-salamatdır?” Bəlkə o, bütün ailəsini birlikdə buraya necə gətirməyi fikirləşirdi?



15

Yusif həmçinin qardaşlarının uzun illər əvvəl etdikləri günahlarına görə həqiqətən peşman olub-olmadıqlarını bilmək istəyirdi. Ziyafətdən sonra o, onları oğurluqda ittiham etdi. Yusif dedi: “Sizi cəzalandırmaq üçün mən Binyamini kölə kimi saxlayacağam”. Yəhuda yalvararaq dedi: “Ağam, onun əvəzinə məni götür”. Yusif bildi ki, onu satmağı məsləhət görən Yəhuda həqiqətən dəyişmişdi.



16



Ailəsinə olan sevgisini artıq gizlədə bilməyərək, Yusif bütün Misirliləri otaqdan çıxartdı. Sonra o hönkürtü ilə ağlamağa başladı. “Mən sizin Misirə satdığınız qardaşınız Yusifəm”.

Çaşıb qalmış və qorxu içində olan qardaşlar heç bir şey demədilər.

17

Yusif qardaşlarını ruhlandırdı. “Allah məni Misirdə ağa etdi ki, bu aclıq vaxtı sizin həyatlarınızı xilas edə bilim. Gedin və atamı gətirin. Mən sizin qayğınıza qalacağam”.



18

Yaqub və Yusif yenidən Misirdə qovuşdular və bütün ailə sülh və bolluq içində orada yaşadı.



19

Allah Kölə Yusifi İzzətləndirir

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Yaradılış 39-45

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

20




8

60



Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**